İNAM İNDEKSİ / 02

Mart / 2020

# STM

## PREZİDENTİN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ

## HESABAT




SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ



*“Sabitliyin və təhlükəsizliyin təminatçısı Azərbaycan xalqıdır, xalq-iqtidar birliyidir, vəhdətidir”.*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ**

İNAM İNDEKSİ / 02
Xüsusi buraxılış

yanvar - mart 2020

# PREZİDENTİN FƏALİYYƏTİ İCTİMAİ RƏYDƏ

Sosioloji sorğu əsasında hazırlanmış
**ANALİTİK HESABAT**


**Tədqiqat qrupu:**
İctimai rəyin öyrənilməsi departamenti
Daxili siyasətin təhlili departamenti
Sosial-iqtisadi təhlil departamenti



Bakı - 2020

## Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

**Buraxılışa məsul:** Elşad Mirbəşir oğlu

**Redaktor:** Aqşin Məmmədov

**Dizayner:** Qurban Cəlilov

Nəşriyyat: “Şərq-Qərb”
Çapa imzalanıb:
Nəşrin ölçüsü:
Fiziki çap vərəqi:
Tiraj:

© Sosial Tədqiqatlar Mərkəzi, 2020

# MÜNDƏRİCAT

**GİRİŞ**......................................................................................4

**I. Sorğunun metodoloji prinsipləri**....................................8

**II. Sorğunun nəticələrinin statistik və analitik təhlili**........9

**NƏTİCƏ**...................................................................................23

# GİRİŞ

Prezident İlham Əliyevin son dövrdə ölkədə həyata keçirilən inqilabi islahatlarla bağlı cəmiyyətin ictimai rəyinə müstəsna əhəmiyyət verməsini nəzərə alaraq, Sosial Tədqiqatlar Mərkəzi (STM) 2019-cu ildən etibarən yeni formatlı sosioloji sorğulara start verib. Bu sorğular islahatlarla bağlı ictimai rəyin rüblük (3 aylıq) monitorinqi baxımından ölkədə bir ilk olmaqla yanaşı, həm də sosial proseslərin dinamikasını və ictimai rəydə dəyərləndirilməsini daha operativ izləməyə imkan verir.

Təqdim edilən növbəti hesabat 2020-ci ilin sona çatan ilk rübünü (yanvar-mart) əhatə edir. Sosioloji sorğu əsaslı bu analitik hesabatın məqsədi bəhs edilən müddətdə dövlət başçısının daxili və xarici siyasətinin başlıca məqamları, ölkədəki ictimai-siyasi və sosial-iqtisadi proseslərin vəziyyəti ilə bağlı xalqımızın rəyinin operativ öyrənilməsi, qanunverici, icraedici hakimiyyət və hüquq-mühafizə sistemində gedən proseslərə cəmiyyətin münasibətini çevik dəyərləndirməklə ümumi mənzərənin göz önündə canlandırılması, müvafiq qərarların qəbulunda mötəbər mənbə kimi həm də ictimai rəyə istinad edilməsinə şərait yaratmaqdır.

Rəy sorğusunda dövlət başçısının həm daxili, həm də xarici siyasət sahəsində çoxşaxəli fəaliyyətini izləməyə imkan verən, siyasi təqvimdə tarixi əhəmiyyətə və xüsusi çəkiyə malik olan, rəsmi xronikada, eləcə də yerli və xarici mediada geniş işıqlandırılan hadisələr əksini tapıb.

2020-ci ilin yanvar-mart ayları ərzində də, həmişə olduğu kimi, Azərbaycanın dövlət başçısının fəaliyyətində beynəlxalq ictimai rəydə gündəmə çevrilən və yadda qalan hadisələr baş verib. Bu hadisələr Prezident İlham Əliyevin dövlətçiliyin gücləndirilməsi naminə daxili və xarici siyasət sahəsində həyata keçirdiyi fəaliyyəti diqqət mərkəzinə gətirməklə yanaşı, ona olan inam və etibarın daha da yüksəlməsini təmin edib. Bu baxımdan, sorğuda xarici və daxili siyasətlə bağlı ictimai rəyin hədəfinə gələn başlıca hadisələri xatırladaq:

**Xarici siyasət sahəsində:**

❖ Fevralın 15-də Prezident İlham Əliyev Almaniyada 1963-cü ildən bəri keçirilən, beynəlxalq sabitlik sahəsində həlledici platforma sayılan nüfuzlu Münhen Təhlükəsizlik Konfransının 56-cı iclasında iştirak və məruzə edib. 35 ölkənin dövlət başçısı (prezident və baş nazirlərin), 100-dən çox xarici işlər və müdafiə nazirləri də daxil olmaqla, 500 nəfər ali rəsmi qonağın iştirak etdiyi Münhen Konfransında Prezident nəinki ikitərəfli formatda vacib görüşlər keçirdi, həmçinin panel müzakirələrdə çox mühüm strateji təşəbbüs və tezislərlə çıxış etdi.

❖ Dövlət başçısı İlham Əliyevin son illərdə davamlı olaraq dəvət edildiyi Münhen Konfransında onunla Ermənistanın baş naziri Nikol Paşinyan arasında ilk dəfə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı siyasi debat formatlı tədbir təşkil edilib. Məhz ilk olması baxımından bu tədbir bütün dünyanın diqqətini cəlb edib. Xüsusilə qlobal erməni diasporu və işğalçı ölkənin anbaan izlədiyi debatda Azərbaycan siyasi liderinin aparıcı-moderatorun suallarına tarixi gerçəklərin elmi izahı, siyasi təcrübəsi və intellektual-elmi təfəkküründən qaynaqlanan dərin siyasi təhlili mükəmməl nəticəsini verib. Konfransın malik olduğu qlobal, eləcə də yerli auditoriyanın önündə Azərbaycan Prezidentinin üstünlüyü birmənalı təsdiqini tapıb. Dövlət başçısı işğalçı ölkə rəhbərinin əlində qalan yeganə resursu - "saxta qədim tarixə dair" məntiqsiz cavablarını ifşa edərək, "real politik" təfəkkürə malik Avropa məkanında erməni tərəfinin tirajladığı saxta tarix mifini alt-üst etdi. Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin nüfuzlu izləyici auditoriyasına çatdırması, tədbir formatından işğalçılıq siyasətini və erməni saxtakarlığını ifşa edilməsi üçün maksimum istifadə edilməsinə nail olması erməni mediası tərəfindən də etiraf edilib. Rəy sorğusu göstərir ki, qlobal siyasi, hərbi, elmi və media elitanın iştirak etdiyi siyasi debatda Azərbaycan Prezidenti bütün parametrlər üzrə malik olduğu üstünlüyünü, siyasi əxlaq, strateji təfəkkür və mədəniyyətini, insani dəyərlərini nümayiş etdirmək imkanından məharətlə istifadə edib. Bu da xalqımız arasında ölkəmizin ərazi bütövlüyünün bərpasına əminlik və inamın artmasını şərtləndirib.

❖ Konfransda Prezidentin qatıldığı panel müzakirələrində Azərbaycanın neft strategiyası ilə bağlı çıxışları, regionda proseslərin təhlükəsizlik aspektindən dəyərləndirilməsi, ABŞ və Rusiya hərbi elitasının, baş qərargah rəislərinin ölkəmizdə keçirilən görüşləri haqqında ona

ünvanlanan suallar və bu sualların cavabları yerli və beynəlxalq mediada geniş işıqlandırılıb. Prezidentin bütün çıxışında istisna olmadan Azərbaycan üçün daha əhəmiyyətli məsələ olan Dağlıq Qarabağ problemini ön plana çəkməsi, milli maraqları müdafiə etməsi ölkə ictimaiyyətinin də rəyində mühüm yer tutub. İctimai rəydə əksini tapan ümumi dəyərləndirməyə əsasən, Azərbaycanın suverenliyinin qarantı olan Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət nəticəsində dövlətimiz sürəkli dəyişən dünyada özü üçün zəruri olan geosiyasi statusu və sanballı təmin etməyə qadirdir. Prezident bunun üçün bütün mövcud resurs və potensialı səfərbər edib.

❖ Prezidentin Davos Dünya İqtisadi Forumunda iştirakı xüsusilə "Strateji baxış: Avrasiya" mövzusunda panel iclasındakı nitqi və dövlət başçısının nüfuzlu iqtisadi-biznes dünyası ilə ənənəyə çevrilən görüşləri Azərbaycanda iqtisadi islahatların davamlılığının strateji məqsəd kimi müəyyənləşdirilməsi, ölkə iqtisadiyyatına xarici investorların cəlb edilməsi və birgə əməkdaşlıq təşəbbüslərinin dərinləşdirilməsi baxımından böyük əhəmiyyəti xüsusi vurğulanmalıdır. Eyni zamanda, Prezidentin Davosda iki və çoxtərəfli danışıqlarda iştirakı Azərbaycanın geoiqtisadi siyasətinin əsas konturları və xarici iqtisadi siyasətin prioritetlərinin açıq şəkildə bəyan edilməsi baxımından müstəsna strateji əhəmiyyət kəsb edir.

❖ 2020-ci ilin birinci rübündə Türkiyə və Türkmənistan ali rəhbərliyinin ölkəmizə səfərləri, həmçinin Prezidentin İtaliyaya rəsmi səfəri, xarici mediaya (Rossiya 24 kanalına) müsahibələri xarici siyasət prioritetlərinin dəyərləndirilməsi baxmından diqqət mərkəzində olub.

**Daxili siyasət sahəsində:**

❖ 2020-ci il yanvarın 13-də ötən ilin yekunlarına həsr olunmuş müşavirədə Prezidentin yekun nitqində həm də cari il üçün hədəflər müəyyən edilib. Dövlət başçısı müşavirədə ölkəmizin sosial-iqtisadi inkişafı ilə bağlı dinamikanı Cənubi Qafqaz, xüsusilə də Ermənistanla müqayisəli şəkildə bütün parametrlər - daxili siyasət, hərbi-güc, ordu quruculuğu, əsas makroiqtisadi göstəricilər, ÜDM, sosial təminat, əmək haqları və pensiyalar, qlobal rəqabətlilik hesabatı, nəhəng enerji-nəqliyyat layihələri, idman və s. üzrə faktlar əsasında birmənalı üstün olan təhlil və göstəriciləri təqdim edib. 2020-ci ilin xüsusilə qeyri-neft sektoru üçün uğurla başlamasını iki böyük layihəyə - regionda ən böyük külək və günəş elektrik stansiyalarının inşasına xarici investorların vəsait ayırmasını qeyd edib[1].

❖ 2020-ci ilin birinci rübü eyni zamanda ölkə miqyasında iqtisadi inkişafın dinamikası üçün olduqca hərəkətli bir dövr (tsikl) kimi xarakterizə edilə bilər. 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə ölkə Prezidentinin "Dünya Bankı Azərbaycanı 20 ən islahatçı ölkə siyahısına salmışdır, bu, böyük nailiyyətdir" fikri isə 2020-ci il üçün bu istiqamətdə gözləntilərin istər kəmiyyət, istərsə də keyfiyyətinin miqyasından xəbər verir.

❖ "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfrans regional inkişafın əsas prioritetlərinin müəyyənləşdirilməsi və eləcə də qeyri-neft sektorunun inkişafı üzrə klasterləşmənin yeni tələblər əsasında inkişafı üçün xüsusi əhəmiyyət kəsb etdi.

❖ Mart ayının 10-da Prezident İlham Əliyev VI çağırış Azərbaycan Respublikası Parlamentinin ilk iclasındakı nitqində Azərbaycanda siyasi islahatların yeni tarixi mərhələsini bəyan edib. Prezidentin nitqi siyasi islahatların dərin aspektlərini əks etdirən konseptual məzmunlu strateji sənəd kimi Azərbaycanda yeni siyasi konfiqurasiyanın formalaşması, siyasi sistemin təkmilləşdirilməsi və ölkəmizdə çoxpartiyalı sistemin daha da möhkəm əsaslar üzərində qurulması üçün qanunverici orqan tərəfindən görülməli tədbirlərin başlıca vektorlarını müəyyən edib. Dövlət başçısı islahatlara alternativ olmadığını, ölkədə iqtisadi və siyasi islahatların sinxron-paralel aparılmasında sarsılmaz əzmin mövcudluğunu bir daha ortaya qoyub.

❖ 2020-ci ilin I rübünün mart ayından başlayaraq, dünya və Azərbaycan gündəmini getdikcə yayılan koronavirus pandemiyası təşkil edir və hazırda da etməkdədir. İlin I rübündən davam edən mühüm strateji əhəmiyyətli sosial obyektlərin açılışında Prezidentin islahatların dönməzliyi ilə bağlı nitqləri və mesajları bir ənənə şəklini alıb. Martın 3-də Prezident Goranboy Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak edib. Azərbaycanda vəziyyətin nəzarət altında olması, pandemiyadan irəli gələn, görülən opera-

[1] *https://president.az/articles/35601*

tiv və böhran idarəçiliyinin bütün strateji isiqamətləri haqqında ölkə ictimaiyyətini məlumatlandırıb. Həmçinin, 1-ci rübdə Ağstafa Aqrar Sənaye Kompleksi, Qazax Əhəng Zavodu, "Şəmkirçay" Sutəmizləyici Qurğular Kompleksinin açılışları da bu qisimdən olub, Prezidentin xalqla canlı təmasları baxımından əhəmiyyət kəsb edib.

❖ 2020-ci ilin birinci rübünün son ayı dünya iqtisadiyyatı üçün presedenti olmayan qlobal iqtisadi risklərlə xarakterizə edilməkdədir. Yaranmış vəziyyət ən üst səviyyədə çevik və qətiyyətli antiböhran menecmenti tələb edir. Məhz bu baxımdan 19 mart 2020-ci il tarixli Prezident sərəncamını cari vəziyyət üçün kifayət qədər dəqiq təsbitlərə əsaslanan və strateji konturları iqtisadiyyatda baş verə biləcək mümkün neqativ tendensiyaların minimallaşdırılmasına yönəlik strateji qərar kimi dəyərləndirə bilərik. Sərəncam çərçivəsində ölkə iqtisadiyyatının sabitliyinin və xarici təsirlərə dayanıqlılığının təmin edilməsi, eləcə də iqtisadiyyatın inkişaf perspektivlərinin qorunması baxımından bir-birini tamamlayan 4 (dörd) fərqli istiqamət üzrə yaradılan işçi qrupları və onların qarşısında qoyulan vəzifələr antiböhran strategiyası üçün ciddi bazis funksiyasını daşıyır.

❖ Prezident həmçinin martın 24-də Mənzil İnşaatı Dövlət Agentliyinin ikinci layihəsi olan Hövsan Yaşayış Kompleksinin açılışında, martın 28-də Bakıda "Yeni klinika" tibb müəssisəsinin açılışında geniş müsahibə verib və çıxışlar edib. Dövlət başçısının bu fəaliyyəti ictimai rəydə böhran idarəçiliyi və sosial kommunikasiyanın təmin edilməsi, pandemiya ilə bağlı görülən tədbirlər və əhalinin maarifləndirilməsi istiqamətində ölkədə bir ilk olmaqla yanaşı, taleyüklü əhəmiyyətə malikdir. Prezident ölkəyə rəhbərliyi dövründə sosial-səhiyyə infrastrukturunun inkişaf etdirilməsinə önəm verilməsini, həmçinin, məhz belə fors-major şəraitlərə önləyici hazırlıq kimi əvvəlcədən düşünüldüyünü xüsusi vurğulayıb. Təsadüfi deyil ki, artıq dünyada "Azərbaycanın koronavirusla mübarizə təcrübəsini öyrənmək üçün rəsmi müraciət edən dövlətlərin olması" xüsusi qeyd edilir[2].

❖ 2020-ci ilin birinci rübü, xüsusilə yanvar-fevral ayları qlobal iqtisadi şoklardan qaynaqlanan təhdidlər fonunda müsbət makroiqtisadi indikatorlarla xarakterizə edilə bilər. Belə ki, bu dövr ərzində ümumi daxili məhsul 2.8% artmış, qeyri-neft sektorunda 6.7% və qeyri-neft sənaye sahəsində 21.7% artım qeydə alınmışdır. İnflyasiya cəmi 2.8%, əhalinin gəlirləri isə 9% olmuşdur, yəni gəlirlər inflyasiyanı üstələmişdir.

❖ Azərbaycanın bütün dünyanın üzləşdiyi böhrandan öz gücü ilə çıxmağa qadir olması da sorğu gedişində üzə çıxıb. Belə ki, bir çox MDB dövlətləri yardım üçün beynəlxalq təşkilat və ölkələrə müraciət etdiyi halda Azərbaycan öz resursları ilə böhranın öhdəsindən gəlməyi bacarır. İctimai rəy göstərir ki, dövlət başçısının düzgün siyasəti, önləyici qərarların qəbulu və icraya nəzarət mexanizmlərinin tətbiqi dövlət idarəçiliyinin səmərəliliyini şərtləndirib.

❖ Digər mühüm məsələ əyalətə çəkilən, yaxud sosial təcrid edilən bir çox dövlət başçılarından fərqli olaraq, Prezidentin ən çətin məqamda xalq arasında olması, fikirlərini bölüşməsi, cəmiyyətə ən düzgün məlumatları çatdırması ilə bir tərəfdən ruh yüksəkliyinin təmin edilməsinə, digər tərəfdən isə pandemiyanın qlobal informasiya müharibəsində sui-istifadə edilməsi cəhdlərini dəf etməklə maarifləndirməyə xidmət edir. İctimai rəyə görə, Prezident koronavirus təhdidinə qarşı "Milli birlik və həmrəylik!" şüarını irəli sürməklə bütün xalqımızı nikbin və sayıq olmağa səfərbər edə bilib.

❖ Dövlət başçısının 2020-ci ilin ilk rübündə iqtisadi sahədə siyasət idarəedicilərini işçi qaydada qəbul edib görülmüş işlərlə bağlı hesabatlılığı təmin etməsi və yerindəcə strateji qərarlar və tapşırıqlar verməsi, islahatlarla bağlı cəmiyyətlə ən üst səviyyədə kommunikasiyanın qurulması baxımından yüksək qiymətləndirilməlidir. Bu idarəetmə üslubu istər istehlakçı davranışları, istərsə də biznes sektoru üçün orta və uzunmüddətli prioritetlərin formalaşdırılması baxımından yüksək əminlik və inam effekti yaradır.

❖ Dövlət başçısının ilin ilk rübündə nəinki paytaxtda, həmçinin cəbhə bölgələrində, təmas xəttinə yaxın regionlarda görüşlər keçirməsinin nəticəsi kimi, ictimai rəydə Ali Baş Komandanın hərbi quruculuq və Milli Ordunun gücləndirilməsi ilə bağlı fəaliyyəti olduqca yüksək dəyərləndirilib.

❖ Prezidentin xalq qarşısında etdiyi çıxışlarda, pandemiyanın tüğyan etdiyi qabaqcıl hesab edilən dünya ölkələri ilə müqayisədə Azərbaycan rəhbərliyinin özünün fəaliyyətində "20-30-50 il sonraya

*[2]Azərbaycanın koronavirusla mübarizə təcrübəsini öyrənmək üçün müraciət edən dövlətlər var// https://apa.az/az/xarici_siyaset/Azrbaycanin-koronavirusla-mubariz-tc-rubsini-oyrnmk-ucun-muracit-edn-dovltlr-var-577968*

baxması", son illərdə dövlət idarəçiliyində aparılan nəhəng islahatların artıq öz bəhrəsini verməsi əksini tapıb. Belə ki, pandemiya informasiya cəmiyyətində böhran idarəçiliyi və çevik sosial kommunikasiya kimi çağırışlar qarşısında duran yeni siyasi elita üçün çox ciddi sınaq olub və yeni kadrlar bu sınağın öhdəsindən gəlməyə hazırlıqlı olduğunu göstərib. İctimai rəy bu baxımdan aparılan kadr və idarəçilik islahatlarının doğruluğunu ortaya qoyub. Hesab edilir ki, yeni kadrlar qlobal təhdidlərə çevik transformasiya olmaq kimi çağırışlara cavab vermək əzmindədir.

❖ Dövlət başçısının daxili siyasətində kadr islahatları və dövlət idarəçilik orqanlarının yeni təyin edilən, yaxud fəaliyyətdə olan rəsmi şəxslərinin hesabat/şəffaflıq xarakterli qəbullar təşkil edilməsi - xüsusilə həyata keçirilən islahatların diqqət mərkəzində olmasını sübut edən yeni bir formatdır. 2020-ci ilin I rübündə - yeni format çərçivəsində Prezident Əmək və Əhalinin Sosial Təminatı nazirini, Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədrini, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədrini, İsmayıllı və Neftçalaya təyin edilən gənc icra başçılarını və s. qəbul edib. İctimai rəy sorğusu əhalinin bu qəbulları da həssas izləməsini aşkara çıxarıb.

❖ 2020-ci ilin I rübü ərzində Prezidentin islahatlar siyasəti çərçivəsində korrupsiya və s. antisosial əməllərə qarşı siyasi iradəsini ortaya qoyması, bəzi icra hakimiyyəti rəhbərlərinin ifşa edilməsi və həbsi də ictimai rəydə gündəm təşkil edib, müsbət dəyərləndirilib.

❖ İlin birinci rübündə neft qiymətlərinin qlobal miqyasda aşağı düşməsinə baxmayaraq, dövlət başçısı martın 24-də sosial islahatlar siyasətinin uğurla davam etdiriləcəyini bəyan edib: "Bu il və bundan sonrakı illərdə bütün sosial öhdəliklər yerinə yetiriləcək. Eyni zamanda, bu il məcburi köçkünlər üçün rekord sayda mənzillərin təqdim edilməsi nəzərdə tutulur - 7 min mənzil veriləcəkdir, keçən il 5 min mənzil tikilmişdir. Şəhid ailələri üçün 1500 mənzil təqdim ediləcək. Hesab edirəm ki, bu gün növbədə duran şəhid ailələri yaxın bir neçə il ərzində evlər alacaqlar və bu proqram da başa çatacaq"[3]. Həmçinin, 2020-ci ilin əvvəlində bütün pensiyalar 16.6 faiz indeksləşdirilib. Nəticədə, Azərbaycanda bütün pensiyalar üzrə orta aylıq pensiya 300 manatın üzərində olub.

Beləliklə, 2020-ci ilin birinci rübü ərzində Prezident İlham Əliyevin daxili və xarici siyasət sahəsində həyata keçirdiyi fəaliyyətə ictimai rəyin münasibətinin və Prezidentə inam indeksinin öyrənilməsi üçün Sosial Tədqiqatlar Mərkəzi tərəfindən keçirilən sorğunun nəticələri ən qısa şəkildə belə ifadə edilə bilər:

Bütün dünyada neft qiymətlərinin aşağı düşməsi, beynəlxalq geosiyasi qarşıdurmaların kəskinləşməsi, II Dünya müharibəsindən sonra dünyada ilk dəfə ən dərin sosial, siyasi, iqtisadi böhran vəziyyətini yaradan yeni qlobal pandemiyanın sürətlə yayılması fonunda Prezident İlham Əliyevə cəmiyyətin inam və etibarı onun həyata keçirdiyi düzgün siyasət nəticəsində daha da artıb, xalqımızın rifahı və firavanlığının daha da yaxşılaşmasına yönələn islahatlar kursuna dəstək yüksələn xətt üzrə gedir.

Təqdim edilən "İnam indeksi" - ictimai rəy sorğusuna əsaslanan analitik hesabat həmin qənaəti təsdiq edir.

*[3]https://president.az/articles/36241*

# I. SORĞUNUN METODOLOJİ PRİNSİPLƏRİ

**Respondentlərin seçimi:**

❍ Keçirilən ictimai rəy sorğusunda ümumilikdə 1212 respondent iştirak edib.

❍ İctimai rəy sorğusu klaster seçmə metoduna əsaslanıb. Ümumilikdə, ölkə üzrə seçilmiş ünvanlarda 101 klaster təsadüfi seçim əsasında müəyyən edilib və hər birində sorğuda iştirak etməyə müsbət cavab verən ilk 12 nəfər əsas seçimə daxil edilib.

❍ Sorğuda iştirak üçün ailədə doğum günü sorğu keçirilən vaxta yaxın olan şəxs seçilib.

❍ Sorğunun nəticələri 95% əminlik intervalı, statistik xəta əmsalının 3% olması nəzərə alınaraq təhlil edilib.

❍ Sahə işi 2020-ci ilin mart ayı ərzində aparılıb.

**Regionlar.** Sorğu Naxçıvan Muxtar Respublikası və işğal edilmiş regionların ərazisi istisna olmaqla aşağıdakı iqtisadi-coğrafi rayonlarda keçirilib: Bakı, Abşeron, Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Aran, Gəncə-Qazax, Yuxarı Qarabağ, Lənkəran. Eyni zamanda, işğal edilmiş rayonların etnik azərbaycanlı əhali qrupu da sorğuya cəlb olunub.

## Sorğunun aparılması üsulu

Sorğunun aparılmasında "üz-üzə" müsahibə üsulundan istifadə olunub. Sorğunun keçirilməsində müasir texnologiya tətbiq olunub və *SurveyToGo* proqramından istifadə edilib. Bu proqram geniş coğrafiyalarda sahəvi işə nəzarət etmək, sorğu prosesinə onlayn müşahidəni əldə saxlamaq və etibarlı informasiya almaq baxımından çoxlu üstünlüyə malikdir.

## Məlumatların işlənilməsi və təhlili

Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə toplanılan məlumatlar bazaya daxil edilərək xüsusi proqram SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib.

Dəyişənlər arasında statistik əhəmiyyətli əlaqənin tapılması üçün korrelyasiya təhlilindən, müxtəlif sosial-demoqrafik qruplar arasında dəyişənlərin müqayisəsi üçün $X^2$, T və ANOVA testindən istifadə edilib. Bundan əlavə, latent faktorun müəyyənləşdirilməsi üçün eksplorator faktor analizi tətbiq olunub və həmin fak-

***Xəritə 1.***
*Sorğunun keçirildiyi məntəqələr*



torun etibarlılığının qiymətləndirilməsi üçün Cronbach's Alpha hesablanıb.

Yuvarlaqlaşdırma səbəbindən diaqramlarda faizlərin cəmi 100%-dən fərqli ola bilər.

### Anketin strukturu

Anket 18 əsas, 4 demoqrafik sualdan ibarət olub. Suallar əsasən bu istiqamətlərdə olub:

- Prezidentin müxtəlif istiqamətlərdəki fəaliyyətinin dəyərləndirilməsi;
- Prezidentin beynəlxalq arenada Ermənistanın işğalçı mövqeyi və Dağlıq Qarabağ problemi barədə çıxışları;
- Əhalinin yerli icra hakimiyyəti orqanlarında aparılan kadr dəyişikliklərinə münasibəti;
- Əhalinin Prezidentə olan inam və etibarının dinamikası.

## RESPONDENTLƏRİN DEMOQRAFİK GÖSTƏRİCİLƏRİ

Sorğuda 1212 respondent iştirak edib. Sorğu təsadüfi seçmə prinsipinə əsaslandığına görə sosial-demoqrafik göstəricilər baxımından əhalinin bütün kateqoriyası təmsil olunub.




## II. SORĞUNUN NƏTİCƏLƏRİNİN STATİSTİK VƏ ANALİTİK TƏHLİLİ

2019-cu ildə ölkədə başladılan köklü islahatlar həm əhalinin sosial rifahının yaxşılaşdırılması, həm kadr islahatları, həm də hakimiyyətin qanunverici və icraedici qollarını əhatə etdi. Bütün bu islahatların daha uğurlu, dayanıqlı aparılmasında ən əsas amillərdən biri də Prezidentin göstərdiyi güclü iradədir.

Respondentlərin Prezidentə və hakimiyyətin hər üç qoluna (qanunverici, icraedici və məhkəmə hakimiyyəti) münasibətini öyrənmək məqsədilə respondentlərin bu qurumlara etibarlılığı öyrənilmişdir.

Respondentlərin mütləq əksəriyyəti Prezidentə etibar etdiyini bildirib. Prezidentə “tam etibar edirəm” deyən-

*__Diaqram 1.__*
*Aşağıdakı qurum və təşkilatlara nə dərəcədə etibar edirsiniz?*




lər respondentlərin mütləq çoxluğunu (90.8%) təşkil edir.

Digər hakimiyyət qollarına etibar Prezidentlə müqayisədə daha aşağıdır. Belə ki, respondentlərin 57.4%-i parlamentə, 46.2%-i yerli icra hakimiyyətinə, 49%-i məhkəməyə etibar edir. Bu üç hakimiyyət qolu içərisində ən aşağı etibarlılıq icra hakimiyyətlərinədir. Digər diqqətçəkici məqam isə hər dörd respondentdən biri (24.8%) icra hakimiyyətlərinə, ondan bir qədər çox respondent (26.3%) isə məhkəməyə etibar edib-etməməsi barədə fikir bildirməkdə çətinlik çəkib.

Parlamentə digər hakimiyyət qolları ilə müqayisədə etibarlılığın yüksək olması bu qanunverici orqanın tərkibinin yenidən formalaşması və cəmiyyətin bununla bağlı gözləntiləri, "etibar krediti" ilə də bağlı ola bilər. STM tərəfindən yerli özünüidarətmə qurumları ilə bağlı keçirilən tədqiqatın nəticələrində yerli icra hakimiyyətlərinin fəaliyyətinin səmərəliliyi, onların əlçatanlığı, problemlərin həllində faydalılığı respondentlər tərəfindən o qədər də yüksək qiymətləndirilmədiyi öz əksini tapmışdır. Bu nəticələrdən də göründüyü kimi, respondentlərin yarıdan az hissəsi yerli icra hakimiyyətinə müəyyən səviyyələrdə etibar edir (24.7% "tam etibar edirəm", 21.5% "əsasən etibar edirəm").

2020-ci ilin birinci rübündə Prezidentin korrupsiyaya qarşı mübarizə siyasəti çərçivəsində, xalqa xidmətin yeni meyarlarının həyata keçirilməsi, bununla bağlı qanunun aliliyinin təmin edilməsi yönündə fəaliyyət davam etmişdir. Dövlət Təhlükəsizlik Xidməti (DTX) tərəfindən yerli icra hakimiyyəti başçılarının qanunazidd əməllərinin qarşısının alınması, həbs edilməsi və bu addımların vətəndaşlar tərəfindən dəstəklənməsi, insanlarda bu prosesin davamlılığına dair gözləntinin olması həqiqətən yerli icra hakimiyyəti strukturlarında islahatların daha intensiv aparılmasının vacibliyinə dəlalət edir.

Təxminən hər dörd respondentdən birinin məhkəmələrə etibar etməməsi və ondan bir qədər artıq respondentin (26.3%) bununla bağlı fikir bildirməkdə çətinlik çəkməsi köklü məhkəmə islahatlarının zəruriliyindən xəbər verir.

Bu nəticə onu deməyə əsas verir ki, vətəndaşlar ölkə Prezidentinə digər qurumlarla müqayisədə daha çox etibar edir.

Respondentlərin mütləq əksəriyyəti tərəfindən ölkə başçısının **ordu quruculuğu və silahlı qüvvələrin modernləşdirilməsi (96%) və xarici siyasət (95%)** sahəsindəki fəaliyyəti yüksək dəyərləndirilib. Ölkə başçısının iqtisadi inkişaf, kənd təsərrüfatı və əmək münasibətlərinin tənzimlənməsi (88.3%), kadr islahatları (87.9%) və sosial müdafiə (87.9%) sahəsindəki fəaliyyətləri respondentlərin böyük əksəriyyəti tərəfindən müsbət qiymətləndirilib.

Prezidentin kadr islahatları və sosial müdafiə sahəsindəki fəaliyyətlərinə respondentlərin verdiyi müsbət qiymət toplamda eynidir. Lakin diqqət etdikdə aydın olur ki, kadr islahatları daha çox respondent (64.9%) tərəfindən "çox yaxşı" dəyərləndirilib. Prezidentin korrupsiyaya qarşı mübarizə sahəsindəki fəaliyyəti respondentlərin əksəriyyəti (85%) tərəfindən müsbət qiymətləndirilib.

*Diaqram 2.*
*Son 3 ayda ölkə başçısının aşağıdakı istiqamətlərdəki fəaliyyətini necə qiymətləndirirsiniz?*




Göründüyü kimi, hərbi və siyasi məsələlərdə ölkə rəhbərinin fəaliyyətinə dair ictimaiyyətin qiymətləndirməsi sosial-iqtisadi və korrupsiyaya qarşı mübarizə məsələlərinə nisbətdə daha yüksəkdir.

STM tərəfindən 2019-cu ilin oktyabr ayında keçirilən “Prezidentin fəaliyyəti ictimai rəydə” adlı sorğuda da ölkə başçısının müxtəlif istiqamətlərdəki fəaliyyəti respondentlər tərəfindən qiymətləndirilib. Həmin nəticələrlə yeni nəticələri müqayisə etdikdə aydın olur ki, keçən bir neçə ay ərzində Prezidentin müxtəlif sahələrdəki fəaliyyətinə əhalinin münasibəti müsbətə doğru yüksəlib. Digər önəmli məqam Prezidentin müxtəlif istiqamətlərdəki fəaliyyətini **“çox yaxşı” qiymətləndirənlər nəzərəçarpacaq dərəcədə artıb.** Aşağıdakı müqayisəli diaqramda (Diaqram 3) istiqamətlər üzrə fərq aydın nəzərə çarpır.

ANOVA təhlili göstərir ki, seçmədə iştirak edən tam orta və daha aşağı təhsil səviyyəsinə malik olanların mütləq əksəriyyəti, ali təhsillilərin isə əksər hissəsi Prezidentin bütün istiqamətlərdəki fəaliyyətini daha yüksək qiymətləndirir.

*Diaqram 3.*
*2019-cu və 2020-ci illərdə ölkə başçısının aşağıdakı istiqamətlərdəki fəaliyyəti üzrə qiymətləndirmənin müqayisəsi*



***Diagram 4.*** *Prezidentin Münhen Təhlükəsizlik Konfransında çıxışını necə qiymətləndirirsiniz?*

**Qeyd:**
Respondentlərə bir neçə cavab variantı seçmək imkanı verilib. Buna görə də alınan cavabların ümumi faizi 100%-dən artıq olub.




Məşğulluq aspektindən yanaşıldıqda Prezidentin bütün istiqamətlərdəki fəaliyyətini işləyənlər, xüsusən dövlət sektorunda çalışanlar, təqaüdçülər, eləcə də evdar qadınlar daha yüksək qiymətləndirir. Bu kateqoriyalarla müqayisədə işsizlər arasında bu göstərici nisbətən aşağıdır.

Rayonlar üzrə fərqlərə gəlincə, xarici siyasət üzrə Aran, Abşeron, Yuxarı-Qarabağ iqtisadi regionlarında daha yüksək əmsal qeydə alınıb. Eyni mənzərə sosial müdafiə sferasındakı fəaliyyət üzrə də müəyyən edilib. Kadr islahatlarına dair daha müsbət qənaət Aran, Yuxarı-Qarabağ və Dağlıq Şirvanda müşahidə edilib. Aran regionunda iqtisadi inkişaf, kənd təsərrüfatı və əmək münasibətlərinin tənzimlənməsi üzrə Prezidentin gördüyü işlər daha yüksək razılıqla qarşılanır.

Korrupsiyaya qarşı mübarizə siyasəti üzrə Prezidentin fəaliyyətinə ən yüksək müsbət qiymət Dağlıq Şirvanda, daha sonra isə Aran və Yuxarı Qarabağda verilib. Aran regionunda ordu quruculuğu və onun təkmilləşdirilməsinə dair sualda da daha yüksək qiymətləndirmə əmsalı qeydə alınıb. Adıçəkilən bölgələrə nisbətdə aşağı olsa da, Gəncə-Qazax iqtisadi rayonunda da əsasən müsbət qənaət formalaşıb.

Lakin diqqət çəkən məqam budur ki, digər bölgələrlə müqayisədə Şəki-Zaqatala bölgəsində Prezidentin müxtəlif istiqamətlərdəki fəaliyyətindən razılıq əmsalı daha aşağıdır. Demək olar ki, eyni mənzərə Bakı şəhəri və Quba-Xaçmaz iqtisadi rayonu üzrə də müşahidə edilib.

Prezidentin xarici siyasət istiqamətindəki fəaliyyətinin mütləq əksəriyyət tərəfindən müsbət dəyərləndirilməsində onun beynəlxalq arenada etdiyi çıxışların da əhəmiyyətli rolu var. Prezidentin vətəndaşlarda yüksək fikir formalaşdıran 2019-cu ildə "Valday" Beynəlxalq Diskussiya Klubunda "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatının - böyük rezonans doğuran çıxışının davamı kimi 2020-ci ilin 15 fevral tarixində Münhen Təhlükəsizlik Konfransındakı çıxışı ölkə əhalisində müsbət əhval-ruhiyyə yaratmaqla bərabər, vətəndaşların Prezidentə olan inam və etibarına da çox müsbət təsir edib. Eləcə də ərazi bütövlüyümüzün bərpa edilməsinə əminliyi daha da artırıb.

Ümumilikdə Prezidentin Münhen Təhlükəsizlik Konfransında müxtəlif panellərdəki çıxışları və N.Paşinyanla siyasi debatda bütün parametrlər üzrə üstünlüyünü nümayiş etdirməsi respondentlər tərəfindən çox müsbət qiymətləndirilib.

Ermənistan baş nazirinin növbəti dəfə aciz duruma düşməsi (56.7%) fikri respondentlər arasında daha geniş yayılıb. Həmçinin, respondentlərin demək olar ki, yarısı bu çıxışı Prezidentin növbəti diplomatik qələbəsi (48.5%), Dağlıq Qarabağ probleminin həlli istiqamətində yeni

bir mərhələ (44.3%) kimi qiymətləndirib. 16.4% respondentin bu haqda məlumatının olmaması diqqət edilməli məqamdır. Bu çıxış haqda məlumatı olmayanların demoqrafik göstəricilərinə baxdıqda qadınların üstünlük təşkil etdiyi aydın olur. Ali və peşə-ixtisas təhsili olanlarla müqayisədə natamam və tam orta təhsillilər bu haqda daha çox məlumatsızdırlar. Bakı və Abşeronla müqayisədə bu çıxış haqda məlumatsız insanlar regionlarda üstünlük təşkil edir. Orta yaşlı və yaşlı insanlarla müqayisədə gənclər daha çox məlumatsızdırlar.

Bu nəticə əhalinin daim məlumatlandırılmasında əsas vasitə olan KİV-lərin fəaliyyətinin effektivliyi məsələsini qabardır. Belə önəmli informasiyaların vətəndaşlara düzgün, dolğun, anlayışlı dildə çatdırılması, yalnız hadisə baş verdiyi vaxt deyil, ondan sonra da daim işıqlandırılması, əhalinin məlumatlandırılması baxımından vacibdir.

Ölkədə və dünyada baş verən hadisələrə Prezidentin çevik reaksiyası ümumilikdə ölkə əhalisi tərəfindən müsbət dəyərləndirilir və dəstəklənir. 2020-ci ilin ilk üç ayı ərzində baş verən bir çox hadisələrə, xüsusən qlobal miqyasda olan iki məsələdə ölkə rəhbərliyinin adekvat reaksiyası vətəndaşlar tərəfindən olduqca müsbət dəyərləndirilib.

Ümumiyyətlə, 2020-ci ilin birinci rübü dövlət başçısının sosial-iqtisadi istiqamət üzrə qəbul etdiyi çevik və məqsədyönlü strateji qərarlarla zəngin bir dövr kimi xarekterizə edilir. Ölkə iqtisadiyyatının sabitliyinin, xarici təsirlərə dayanıqlılığının təmin edilməsi və iqtisadiyyatın inkişaf perspektivlərinin qorunması istiqamətində ciddi siyasi iradəyə söykənən genişmiqyaslı fəaliyyət planının əsas konturları Prezident tərəfindən müəyyənləşdirilməklə ciddi şəkildə nəzarətə götürülmüşdür. Məhz bu istiqamətlər üzrə respondentlərin qabaqlayıcı tədbirlərə (preventiv siyasət strategiyalarına) münasibəti konkret prioritetlər üzrə öyrənilmişdir.

Böhranlı dövrlərdə geniş ictimaiyyətin iqtisadi kontekstdə ciddi şəkildə təqib etdiyi iqtisadi siyasət istiqamətlərindən biri kimi məzənnə siyasəti ilə bağlı vətəndaş rəyi olduqca vacibdir. Belə ki, rəyi öyrənilən respondentlərin əhəmiyyətli bir hissəsi (75.9%-i) dünya neft bazarlarındakı volatillik fonunda valyuta məzənnəsinin sabit saxlanılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirləri əhəmiyyətli dərəcədə səmərəli hesab edir. Aparılan təhlillər bizə onu deməyə əsas verir ki, respondentlərin hansı sektorda çalışmasından asılı olaraq bu istiqamətdə səmərəliliyin qiymətləndirilməsi fərqlənir. Belə ki, dövlət sektorunda çalışan respondentlər bu istiqamətdəki dövlət siyasətini çox səmərəli qiymətləndirdikləri halda, özəl sektorun nümayəndələri əsasən səmərəli kimi dəyərləndirirlər ($F(6)=3.593$, $p<0.01$). Bu kontekstdə cavab verən respondentlərin yaş strukturuna diqqət etsək, asanlıqla görə bilərik ki, yaşı 25-ə qədər olan respondentlərlə müqayisədə daha yaşlı kəsim (xüsusilə 50 yaşdan yuxarı respondent qrupu) valyuta sabitliyini daha yüksək qiymətləndirirlər ($F(4)=5.469$, $p<0.01$). Bu təsbitdən çıxış edərək məsələyə ailə təsərrüfatlarının pozitiv mövqedən çıxış etdiyi fikrini də söyləyə bilərik.

Diqqət çəkən məqamlardan biri də ondan ibarətdir ki, hər beş respondentdən sadəcə biri bu istiqamətdə rəy bildirməkdə çətinlik çəkib. Bu suala cavab verməkdə çətinlik çəkən respondentlərin gender baxımından müqayisəli təhlilin-




***Diaqram 5.***
*Neft qiymətlərinin enməsi fonunda ölkə rəhbərliyinin aşağıdakı istiqamətlərdəki qabaqlayıcı tədbirlərini necə dəyərləndirirsiniz?*

dən çıxan nəticə qadınların çoxluq təşkil etdiyi qənaətinə gəlməyimizə səbəb olur ($X^2(1)=9.996$, $p<0.01$). Eyni zamanda, təhsil səviyyəsi yüksək olan respondentlərin orta təhsillilər ilə müqayisədə bu suala cavab verməkdə daha az çətinlik çəkdikləri də təsbit edilib ($X^2(4)=25.135$, $p<0.01$). Digər tərəfdən, ölkə miqyasında (sorğunun keçirilmədiyi coğrafiya istisna olmaqla) şəhərdə yaşayan respondentlər kənddə yaşayan respondentlərlə müqayisədə daha açıq mövqe bildiriblər ($X^2(1)=4.424$, $p<0.05$). Buna müqabil rəyi öyrənilənlərin sadəcə 3.1%-i verilən strateji qərarlarla bağlı pessimist mövqe sərgiləyiblər.

Bu blok üzrə digər önəmli bir istiqamət kimi maliyyə-bank sektorundakı stabilliyin təmini ilə bağlı nəticə əsaslı tədbirlərə münasibət ön plana çıxır. İctimai rəyi aşağıdakı göstəricilərlə xarakterizə edə bilərik. Müvafiq olaraq respondentlərin 63.1%-i kifayət qədər səmərəli, 3.5%-i əsasən səmərəsiz və əhəmiyyətli bir kəsim - 33.4% respondent isə bu istiqamətdə verilmiş suala mövqe bildirməkdə çətinlik çəkdiklərini bildiriblər. Sözügedən sahədə həyata keçirilən islahatları müsbət qiymətləndirən respondentlər həm də effektiv valyuta siyasətinin keçirildiyi qənaətindədirlər. Yəni korrelyasiya analizi də müsbət nəticə verir ($r=0.542$, $p<0.01$). Maliyyə-bank sektorundakı stabillik tədbirlərini yüksək qiymətləndirən respondentlər ərzaq təhlükəsizliyinin təmin edilməsi fikri ilə də əhəmiyyətli dərəcədə razıdırlar ($r=0.480$, $p<0.01$). Ancaq bu əlaqənin gücü valyuta siyasətindəki stabilliklə əlaqənin gücündən nisbət etibarilə aşağıdır. Maraqlı məqam ondan ibarətdir ki, respondentlər arasında orta təhsilli kəsim ilə müqayisədə ali və peşə-ixtisas təhsilli kəsim cavab verməkdə daha az çətinlik çəkib ($X^2(4)=13.620$, $p<0.01$). Təhlillər eyni zamanda onu da deməyə əsas verir ki, bu suala cavab verməkdə çətinlik çəkən respondentlərin böyük bir hissəsi valyuta məzənnəsinin sabit saxlanılması ilə bağlı suala da cavabda eyni mövqedən çıxış ediblər ($X^2(4)=0.346$, $p<0.01$).

COVID-19 pandemiyasının və eləcə də qlobal neft böhranının (neft qiymətlərindəki kəskin eniş) dərinləşdiyi bir dövrdə ərzaq təhlükəsizliyi ilə təminat sahəsində reallaşdırılmış genişmiqyaslı işlərə ictimai münasibətin öyrənilməsi strateji baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu məsələ ilə bağlı ictimai rəy sosial-iqtisadi olmaqla yanaşı təhlükəsizlik məsələsi kontekstindən də önəmlidir. Belə ki, 89.2% respondent ölkə Prezidentinin məsələyə xüsusi həssaslıqla yanaşmasını və daima diqqət mərkəzində saxlamasını olduqca yüksək qiymətləndirərək bu istiqamətdə dövlət siyasətini təqdir edir. Bu göstərici bir daha ictimaiyyət tərəfindən Prezidentin sosial-iqtisadi kursunda vətəndaş maraqlarının qərarlaşdığı fikrinin açıq təzahürüdür. Rəyi öyrənilənlərin 2.4%-i bu istiqamətdəki işləri qeyri-səmərəli qiymətləndirdiyi halda 8.4% respondent bu kontekstdə cavab verməkdə çətinlik çəkib. İctimai rəyə əsaslanaraq qeyd edə bilərik ki, qlobal iqtisadi durğunluq fonunda belə cənab Prezidentin bu istiqamətdə milli iqtisadi maraqlara əsaslanaraq çıxış etməsi respondentlər tərəfindən yüksək qiymətləndirilir.

Ölkə miqyasında həyata keçirilən və mərkəzi determinanatı kimi Azərbaycan vətəndaşının çıxış etdiyi sosial-iqtisadi islahatların yeni mərhələsində diqqət çəkən məqamlardan biri də bu sahədə fəaliyyət göstərən dövlət institutlarının islahat kursunun bütün mərhələləri üzrə geniş ictimaiyyəti mütəmadi məlumatlandırması çıxış edir. Bu isə böhran kommunikasiyası sahəsində effektivliyin bir üst mərhələyə keçidi ilə xarakterizə edilir. Məsələyə retrospektiv yanaşdıqda son üç ayda ölkə Prezidentinin sosial-iqtisadi blokun təmsilçiləri (siyasət idarəedicələri) ilə sistemli görüşləri və müvafiq tapşırıqlarını geniş auditoriya qarşısında verməklə bağlı hesabatlılığı təmin etməsi faktorunu xüsusilə qeyd edə bilərik.

Respondentlərin 87.8%-i bu istiqamətdə fəaliyyəti əhəmiyyətli dərəcədə səmərəli hesab etdiyi halda, çox kiçik bir kəsim - rəqəmsal olaraq ifadə etsək 2.6% respondent görülən işləri səmərəsiz qiymətləndirib. Ümumilikdə 9.4% respondent isə cavab verməkdə çətinlik çəkdiyini bildirib. Rəyi öyrənilən qəsəbə respondentləri bu istiqamətdəki fəaliyyəti şəhər və kənd həmkarları ilə müqayisədə daha səmərəli qiymətləndiriblər ($t(644)=2.504$, $p<0.05$). Digər bir perspektivdən bu suala cavab verməkdə çətinlik çəkən respondentlərin daha çox qəsəbə və kənddə yaşayanlardan formalaşdığının şahidi oluruq ($X^2(2)=21.413$, $p<0.01$).

Ümumiyyətlə, respondentlərə ünvanlanmış sualın alt komponenetləri üzrə cavab verməkdə çətinlik çəkən kəsimin digər suallarla müqayisədə çoxluq təşkil

etməsi, cari qlobal iqtisadi durğunluq kontekstində ölkə rəhbərliyinin strateji addımları və 2019-cu ilin aprel islahatlarından (sosial-iqtisadi sahədə) sonra yaranmış iqtisadi konyukturadan pozitiv gözləntilərinin olduğunu və nəticələrə indeksləndiklərini qeyd edə bilərik. Beynəlxalq təcrübə də göstərir ki, sosial-iqtisadi islahatlar öz nəticələrini bəlli zaman intervalından sonra büruzə verir. Digər tərəfdən, cavab verməkdə çətinlik çəkənləri sosial-demoqrafik prizmadan dəyərləndirdikdə əsasən qadınlar və təhsil səviyyəsi aşağı olanların ön plana çıxdıqlarının da şahidi oluruq.

Bu sual blokunda respondentlərə ünvanlanan 4 alt suala faktor təhlili çərçivəsindən yanaşdıqda bir faktor kimi qiymətləndirmək olar. Qeyd olunan sualların faktor yükləri 0.750 və 0.818 aralığındadır. Qiymətləndirilən bir faktor dəyişkənliyin 61%-ni izah edir. Onu da xüsusi olaraq qeyd edək ki, faktorun etibarlılığı da yüksəkdir (Cronbach's Alpha = 0.773). Respondentlərin sosial-iqtisadi kontekstdəki alt suallara cavablarından çıxış edərək "latent faktor" kimi Prezidentin sosial-iqtisadi siyasət kursuna respondentlərin yüksək inamını qeyd edə bilərik. Bu faktor eyni zamanda "İnam indeksi" 2020/1-in sub-indeksi kimi sosial-iqtisadi siyasət kursunun strateji əhəmiyyətini bir daha təsdiq etmiş olur.

Son bir neçə ayda ölkə və dünyanı narahat edən məsələlərdən biri də koronavirus pandemiyasıdır. Bu problemin yaradacağı fəsadların qarşısını almaq məqsədilə Azərbaycanın dövlət başçısı tərəfindən pandemiya ilə bağlı tədbirlərin ilkin mərhələsində atılan operativ addımlar digər ölkələrlə müqayisədə koronavirusun yayılmasının qarşısının alınması baxımından Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilib.

Prezidentin göstərişi ilə Nazirlər Kabineti yanında Operativ Qərargahın yaradılması, ali və orta təhsil müəssisələrində tədrisin dayandırılması, karantin məhdudiyyətlərinin tətbiq edilməsi, xüsusi rejimin qanunverici əsaslarının Milli Məclis tərəfindən təmin edilməsi, koronavirusla bağlı vəziyyətin davamlı monitorinq edilməsi - bütün bu proseslərin birbaşa Prezidentin nəzarəti altında həyata keçirilməsi ölkə vətəndaşları tərəfindən çox müsbət qiymətləndirilib.

Dövlət başçısının "Milli birlik və həmrəylik!" şüarını irəli sürməklə Koronovirusla Mübarizəyə Dəstək Fondunu yaratması, Prezidentin və I Vitse-prezidentin illik maaşlarını bu Fonda yardım məqsədilə köçürməsi bütün ölkə əhalisində sosial məsuliyyət hissinin daha da yüksəlməsinə səbəb oldu. Prezidentdən örnək alaraq vətəndaşlar da bu ümummilli prosesə qoşulmağa başladı.

STM tərəfindən əhalinin koronavirusa münasibəti ilə bağlı keçirilən sorğunun nəticələrinə əsasən deyə bilərik ki, respondentlərin mütləq əksəriyyəti (93%) dövlətin koronavirusla bağlı mart ayında həyata keçirdiyi tədbirləri müsbət dəyərləndirərək yetərli sayır. İctimai rəy Prezidentinin milli genofondun qorunması, sosial səhiyyə və sağlamlığın daha da möhkəmləndirilməsi məsələlərinə xüsusi həssaslıqla yanaşmasını, daima diqqət mərkəzində saxlamasını olduqca yüksək qiymətləndirərək bu istiqamətdə dövlət siyasətini təqdir edir.

"Ölkə rəhbərliyinin koronavirusla bağlı gördüyü adıçəkilən tədbirləri necə dəyərləndirirsiniz?" sualında əhalinin əksəriyyəti atılan addımları müsbət dəyərləndirir. Respondentlərin böyük əksəriyyəti bir sıra qonşu ölkələr ilə sərhədlərin bağlanmasına (85.6%), kütləvi tədbirlərin qadağan edilməsinə (84%) tədrisin dayandırılmasına (82.4%) daha müsbət münasibət bildirib.

Diqqət etdikdə aydın olur ki, təxminən 10%-ə yaxın respondent bu məsələlərlə bağlı fikir bildirməkdə çətinlik çəkib. Buna səbəb martın əvvəlində hələ pandemiya-




**Diaqram 6.**
*Dövlətin koronavirus pandemiyası ilə bağlı həyata keçirdiyi tədbirləri nə dərəcədə yetərli hesab edirsiniz?*

*__Diaqram 7.__*
*Ölkə rəhbərliyinin koronavirus pandemiyası ilə bağlı gördüyü adıçəkilən tədbirləri necə dəyərləndirirsiniz?*




nın ölkəmizdə qeydə alınmaması, yalnız xaricdən gələn insanlarda bu virusun aşkarlanması, yeni yoluxma hallarının çox az sayda olması idi. Çünki insanlar görülən bu tədbirlərin mahiyyətini tam dərk edib qiymətləndirməkdə çətinlik çəkirdi.

Qeyd etmək lazımdır ki, insanların müəyyən qismi mövcud karantin rejiminin davam edəcəyi təqdirdə belə mənfi təsirləri olacağını düşünmür. İnsanların belə fikirdə olmasına əsas səbəb dövlətə inanmalarıdır. Onlar hər bir halda dövlətin öz vətəndaşlarını dəstəkləyəcəyi düşüncəsindədirlər.

Həmin sorğuda respondentlərin böyük əksəriyyəti (87.8%) mövcud vəziyyətdə hər hansı problemlə qarşılaşdığı zaman dövlətin onlara dəstək göstərəcəyinə inanır.

Koronavirus təhlükəsi yaranandan insanlarda bu virusdan qorunmaq üçün müxtəlif tibbi vasitələrə (spirt, maska) tələbat artdı. Bu tələbatın artması fonunda bəzi qüvvələr bu fürsətdən yararlanmağa çalışaraq süni qiymət artımını, həmin vasitələrin "qıtlığını" yaratdılar. Bu kimi halların ictimai qınağa səbəb olması, sosial şəbəkələrdə geniş müzakirə edilməsi vətəndaşların narazılığından xəbər verirdi.

Ölkə başçısı məsələdən xəbərdar olan kimi bununla bağlı hüquq-mühafizə orqanlarına tapşırıq verərək məsələni ciddi nəzarətə götürdü.

Bu prizmadan çıxış edərək respondentlərə "Vətəndaş nəzərində ictimai qınağa səbəb olan məsələlərə Prezidentin reaksiyası sizi nə dərəcədə qane edir?" sualı verilmişdir.

**Ümumilikdə, respondentlərin mütləq əksəriyyəti (92.8%) ictimai qınağa səbəb olan hadisələrə Prezidentin reaksiyasından razıdır.** Belə ki, respondentlərin üçdə ikisindən bir az çox hissəsi (66.8%) ölkə rəhbərinin ictimai qınağa səbəb olan məsələlərə reaksiyasından "tam razıdır", 26% "qismən razı"dır. Beləliklə, yuxarıda da qeyd edilən ictimai qınaq və problemlərin vətəndaşların özləri tərəfindən işıqlandırılmasının əhəmiyyətini bu nəticələr bir daha təsdiq edir.

Vətəndaş nəzərində ictimai qınağa səbəb olan məsələlərə Prezidentin reaksiyasından qane olanlar qane olmayanlara nisbətdə ölkə başçısının müəyyən istiqamətlərdəki fəaliyyətini daha müsbət dəyərləndirir. Təhsil səviyyəsi yüksəldikcə vətəndaş nəzərində ictimai qınağa səbəb olan məsələlərə Prezidentin reaksiyasından qane olmamaq ehtimalı nisbətən artır.

İctimai qınağa səbəb olan məsələlərə Prezidentin reaksiyası bilavasitə onun yerlərdə baş verənlərlə bağlı məlumatlılığı ilə də bağlıdır.

Respondentlərin əksəriyyəti (88.9%) yerlərdə baş verənlər barədə Prezidentin ümumilikdə məlumatlı olması fikrindədirlər. Lakin Prezidentin nə dərəcədə məlumatlı olub-olmaması barədə respondentlərin fikri birmənalı deyil. Belə ki, "tam

*__Diaqram 8.__*
*Vətəndaşların nəzərində ictimai qınağa səbəb olan məsələlərə Prezidentin reaksiyası sizi nə dərəcədə qane edir?*



məlumatlıdır" (44.3%) və "qismən məlumatlıdır" (44.6%) cavablarını seçənlərin çəkisi demək olar ki eynidir. Maraqlıdır ki, təxminən 10% insan ölkə rəhbərinin yerlərdə baş verənlər barədə heç bir məlumatının olmadığını düşünür ki, bu da narahatedici göstəricidir.

Əhalinin bu fikirdə olmasının əsas səbəblərindən biri də vətəndaşlar tərəfindən Prezidentə ünvanlanan məktubların, şikayət ərizələrinin ünvana çatmaması və nəticədə onların məktublarının cavabsız qalmasıdır. VI çağırış Milli Məclisin açılış iclasında da Prezident İlham Əliyev məhz bu məsələyə ciddi şəkildə toxundu. Belə ki, o, şikayət mexanizminin olmasının vacibliyindən bəhs edərək, ictimai nəzarətin daha da güclənməli olduğunu vurğuladı. Bunun üçün tədbirlər görüldüyünü bildirən ölkə başçısı Prezident Administrasiyasında vəziyyətin tamamilə dəyişdiyini, yerlərdə buna mane olan insanların işdən uzaqlaşdırıldığını, bu istiqamətdə işlərin daha da yaxşılaşdırılması üçün addımlar atıldığını diqqətə çatdırıb.

Prezidentin çıxışlarında bu məqamları vurğulaması vətəndaşların bu məsələyə daha optimist yanaşmasına, onların problemləri ilə bağlı şikayət və müraciətlər etməsinə şərait yaratmaqla yanaşı, bu prosesə mane olan məmurların bu işlərdən çəkinəcəyi, öz işlərində daha keyfiyyətli olacağı ehtimalını da artırır.

Prezident çıxışlarında, verdiyi qərarlarda, həyata keçirdiyi vətəndaşyönümlü tədbirlərdə ictimai rəyi daim önəmsədiyini vurğulayır. Əhali arasında keçirilən sorğular, bu sorğuların nəticələrinin ictimailəşməsi, ölkə başçısı tərəfindən bu sorğulara istinad edilməsi də vətəndaşlarda ictimai rəyin, onların fikir və münasibətlərinin dövlət üçün vacib olduğu düşüncəsinin yaranmasına səbəb olur. Respondentlərin böyük əksəriyyəti yerlərdə baş verənlərlə bağlı Prezidentin məlumatlılığının onun qərar qəbul etməsində özünü müxtəlif formalarda göstərdiyi fikrindədirlər.

67.5% respondentin nəzərində yerlərdə baş verənlərlə bağlı Prezidentin məlumatlılığı onun qanunazidd hərəkətlərə yol verən məmurların cəzalandırılmasına dair atdığı addımlarda özünü ehtiva edir. Yəni ölkə rəhbəri qanunazidd hərəkətlərə yol verən məmurlar barədə informasiya əldə etdikdə həmin şəxsin cəzalandırılmasını təmin edir. Son aylarda bəzi rayonların (Ağstafa, Neftçala) icra hakimiyyəti başçılarının Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən həbs edilərək cəzalandırılması da buna real sübutdur.

Respondentlərin demək olar ki, yarısının fikrincə (48.7%), korrupsiyaya qarşı mübarizədə və kadr islahatlarında (43.2%) yerlərdə baş verənlərlə bağlı Prezidentin məlumatlılığı onun qərar qəbul etməsində özünü göstərir.




*Diaqram 9. Fikrinizcə, Prezident yerlərdə baş verənlər barədə nə dərəcədə məlumatlıdır?*




*Diaqram 10. Yerlərdə baş verənlərlə bağlı Prezidentin məlumatlılığı onun qərar qəbul etməsində özünü hansı formalarda göstərir?*

**Qeyd:** Respondentlərə bir neçə cavab variantını seçmək imkanı verilib. Buna görə də alınan cavabların ümumi faizi 100%-dən artıq olub.




***Diaqram 11.***
*“Fəaliyyətlərində qanunazidd əməllərə yol verən icra hakimiyyəti başçılarının vəzifədən azad edilməsi onu göstərir ki, Prezident vətəndaşların rəyini dinləyir və nəzərə alır” fikri ilə nə dərəcədə razısınız?*

Göründüyü kimi, vətəndaşların əsaslı bir hissəsi hesab edir ki, Prezident baş verənlərlə bağlı informasiya əldə etdikdə lazımi kadr dəyişikliklərini müxtəlif formalarda, o cümlədən cəzalandırma vasitəsilə həyata keçirir. Bu nəticəyə əsasən, ölkə rəhbərinin çıxışlarında tez-tez vurğuladığı ictimai nəzarətin nə dərəcədə əhəmiyyətli olduğunu bir daha görə bilərik. Sosial problemlərin həllində və onlara çevik reaksiya verilməsində Prezidentin məlumatlılıq səviyyəsinin mühüm əhəmiyyətə malik olmasını yalnız hər üç respondentdən birinin (36.7 %) ifadə etməsi düşündürücü məqam hesab edilə bilər.

**Ümumilikdə respondentlərin mütləq əksəriyyəti (95.2%) Prezident tərəfindən icra başçılarının vəzifədən azad olunmasında ictimai rəyin rolunun olması fikrindədir.** Əhalinin böyük əksəriyyəti (81.8%) tam əminliklə bu qənaətdədir ki, yerli icra hakimiyyəti başçılarının Prezident tərəfindən vəzifədən azad edilməsində ictimai fikrin birbaşa təsiri var. Əhali arasında belə qənaətin yayılması Prezident-vətəndaş münasibəti cəhətdən müsbət xarakterizə edilə bilər.

İslahatlar və korrupsiyaya qarşı mübarizə siyasəti çərçivəsində Dövlət Təhlükəsizlik Xidməti tərəfindən yerli icra başçılarına qarşı aparılan əməliyyatlar xüsusilə regionlarda yaşayan vətəndaşlarda müsbət gözləntilərin yaranmasına səbəb oldu. Bəzi hallarda vəziyyətin dəyişməyəcəyi, məmur özbaşınalığının davam edəcəyini düşünənlərin belə fikirləri dəyişməkdədir. Respondentlərin yarıdan çoxu (54.4%) bu əməliyyatlardan sonra rayon icra hakimiyyəti başçılarının korrupsiyaya yol verməkdən çəkinəcəyini düşünür. Bir o qədər respondentdə (50.3%) vətəndaşların qanunun aliliyinə inamının artacağı gözləntisi var. Sözügedən tədbirlər, “Qanunun aliliyi” prinsipinə əməl edilməsi istənilən yüksək rütbəli məmurun qanun qarşısında bərabər olması və korrupsiya ilə bağlı məsələlərdə heç kimə güzəşt edilməyəcəyi ilə bağlı dövlət başçısının ortaya qoyduğu siyasi iradəsini bir daha təsdiqləyib. Bu isə insanlarda qanuna, hüquq sisteminə inamın artmasına səbəb olur. Respondentlərdən 9.4%-nin heç bir gözləntisinin olmaması diqqət yetirilməli məqamdır. Bu hal həm də bəzi rayonlarda yerli icra hakimiyyəti başçılarının fəaliyyətlərinin qənaətbəxş olmamasından xəbər verə bilər. Eynilə, 9.4% respondent mövcud cəzalandırma prinsiplərinin hər hansı fundamental dəyişikliyə səbəb olmayacağını düşünür.

***Diaqram 12.***
*Son dövrlərdə Dövlət Təhlükəsizlik Xidməti tərəfindən aparılan məlum əməliyyatlardan gözləntiləriniz nələrdir?*

**Qeyd:**
Respondentlərə bir neçə cavab variantını seçmək imkanı verilib. Buna görə də alınan cavabların ümumi faizi 100%-dən artıq olub.



Təəssüfləndirici məqamlardandır ki, bəzi icra hakimiyyəti başçıları onlara ölkə rəhbəri tərəfindən göstərilən etimadı öz fəaliyyətlərində doğrultmurlar. Prezident çıxışlarında daim məmurları şəffaf işləməyə, vətəndaşlara xidmət etməyə, insanların rifahını yaxşılaşdırmağa çağırışlar etsə də, bunlara məhəl qoymayan bəzi məmurlar vətəndaşlara münasibətdə öz neqativ fəaliyyətlərini davam etdirir. Bu baxımdan, etimadı doğrultmayan məmurların vəzifədən uzaqlaşdırılması və cəzalandırılması bu istiqamətdə dövlət siyasətinin əməli xarakter daşımasına dəlalət edir. Məhz buna görə də son aylarda bəzi rayonların icra başçılarının fəaliyyəti ilə bağlı Dövlət Təhlükəsizlik Xidməti tərəfindən əməliyyatların aparılması vətəndaşların müsbət reaksiyasına səbəb olub. Sorğunun nəticələri də bunu göstərir. Belə ki, respondentlərin əksəriyyəti (85%) bu əməliyyatların Prezidentin imicinə müsbət təsir etdiyini düşünür. Vəzifələrindən sui-istifadə edən məmurların cəzalandırılaraq vəzifədən uzaqlaşdırılması başlanan islahatlara heç kimin mane ola bilməyəcəyinə inamı artırır.

2019-cu ildə başladılan kadr islahatlarının əsas özəlliklərindən biri də "gəncləşdirmə siyasəti" idi. Hökumətdə təmsil olunan yaşlı nəslin daha gənc kadrlarla əvəzlənməsi vətəndaşlar tərəfindən dəstəklənməklə yanaşı, onların daha müsbət gözləntilərinin də artmasına səbəb oldu.

Respondentlərin mütləq əksəriyyəti (91%) son dövrlər yerli icra hakimiyyəti orqanlarına daha cavan kadrların təyin olunmasını bu və ya digər dərəcədə müsbət (75.2% "çox yaxşı", 15.8% "əsasən yaxşı") qiymətləndirir. 6.1% respondentin neytral münasibət göstərməsi onların gənc icra başçılarının fəaliyyəti ilə bağlı təsəvvürlərinin hələ formalaşmamasından irəli gələ bilər. Bu göstəriciyə əsasən deyə bilərik ki, ölkə əhalisinin 90%-dən çoxu son dövrlər yerli icra hakimiyyəti orqanlarına daha cavan kadrların təyin olunmasına bu və ya digər dərəcədə müsbət, 6.1%-i isə neytral münasibət göstərir. Belə deyə bilərik ki, əhali yerli icra hakimiyyəti orqanlarında kadr dəyişikliklərinə müsbət yanaşır. Gənc nəslin nümayəndələrinin təyinatına da münasibət yüksəkdir. Yəni əhali ümid edir ki, yenilənmə, xüsusən də nisbətən gənc kadrların hesabına yenilənmə əhalinin mənafelərinə uyğun olacaq, yenilər əvvəlkilərdən yaxşı olacaq. Eyni zamanda onu da vurğulmaq lazımdır ki, bu həm də ictimai rəyin gözləntisidir. Belə ki, kadr siyasətinin mahiyyəti sadəcə "gəncləşdirmə" deyil, dövlət başçısının xalqa xidmət meyarlarına əməl edilməsidir.




*Diaqram 13. Bir sıra rayon icra hakimiyyəti başçılarına qarşı Dövlət Təhlükəsizlik Xidməti tərəfindən əməliyyatlar aparılması Prezidentin imicinə necə təsir göstərir?*




*Diaqram 14. Yerli icra hakimiyyəti orqanlarına daha gənc kadrların təyin olunmasına münasibətiniz necədir?*

V çağırış Milli Məclisin buraxılması və yeni növbədənkənar seçkilərin keçirilməsi köklü islahatların əsas bir hissəsi oldu. Qeyd etmək lazımdır ki, Milli Məclisə keçirilən seçkilər zamanı Prezident gəncləri aktiv olmağa, namizədliklərini irəli sürməyə çağırdı. Yeni formalaşan Milli Məclisin tərkibində gənclərin kifayət qədər yer tutması icraedici hakimiyyətlə yanaşı, qanunverici hakimiyyətdə də gənclərin təmsilçiliyinin dövlət tərəfindən dəstəkləndiyinin göstəricisidir.

V çağırış Milli Məclisin yeni islahatlar kursuna adekvat cavab verməməsi, bəzi hallarda bu prosesi ləngitməsi səbəbindən yeni çağırış parlamentə ehtiyac göründü və yeni tərkib formalaşdı. Respondentlərin əhəmiyyətli hissəsi (63.9%) Milli Məclisin yeni tərkibinin Prezidentin islahatlar kursuna dəstək verə biləcəyini düşünür. Digər vacib məqam 21.1% respondentin bu haqda fikir bildirməkdə çətinlik




*Diaqram 15.*
*Milli Məclisin yeni tərkibi Prezidentin islahatlar kursuna dəstək verə biləcəkmi?*

çəkməsidir. Bu onu göstərir ki, heç də az olmayan sayda insanda Milli Məclisin yeni tərkibi haqda kifayət qədər məlumat yoxdur və ya hər hansı fikrin formalaşması üçün müəyyən zamana ehtiyac var.

Güc/təhlükəsizlik strukturlarında islahatlar 2019-cu ilin iyun ayından başladı və növbəti aylarda da davam etdi. Respondentlər Prezidentin təhlükəsizlik orqanlarında həyata keçirdiyi kadr dəyişikliklərinin ümumi islahatların effektivliyinə (79.5%), milli təhlükəsizliyin gücləndirilməsinə (85.5%), xalqın təhlükəsizlik orqanlarına olan inamına (81.9%) müsbət təsir edəcəyi fikrindədir. Digər diqqət yetirilməli məqam 10.5% respondentin bu dəyişikliklərin ümumi islahatların effektivliyinə, 8.7%-in isə xalqın təhlükəsizlik orqanlarına olan inamına heç bir təsirinin olmayacağı fikrində olmasıdır. Vətəndaşlarda bu hissin olmasına, davam edən köklü islahatlara, bəzi qurumlarda baş verən kadr dəyişikliklərinə baxmayaraq, hələ də bəzi yerlərdə müəyyən neqativ

*Diaqram 16.*
*Prezidentin təhlükəsizlik orqanlarında həyata keçirdiyi kadr dəyişiklikləri aşağıdakı istiqamətlərə necə təsir göstərir?*




hallar qalmaqda davam edir.

Başladılan islahatların uğurla davam etdirilməsinə baxmayaraq hələ də bəzi sahələrdə köklü islahatlara, kadr dəyişikliklərinə ehtiyac hiss olunur.

"Hansı sahədə daha çox islahatlara ehtiyac var?" sualına verilən cavablara əsasən deyə bilərik ki, icra hakimiyyəti (53.7%) və məhkəmə (45.7%) hakimiyyətində islahatların aparılması əhali tərəfindən ən çox ehtiyac duyulandır. İcra hakimiyyəti sahəsində islahatların vacibliyini deyənlər içərisində icra hakimiyyətinə etibar etməyənlər üstünlük təşkil edir ($X^2(9)=22.122$, $p<0.01$). Bu nəticə onu deməyə əsas verir ki, hələ də yerlərdə icra hakimiyyətlərinin fəaliyyətləri qənaətbəxş deyil və vətəndaşlar tərəfindən səmərəli qiymətləndirilmir.

Respondentlərin təxminən yarısının məhkəmə sahəsində də islahatların zəruriliyini bildirməsi bu istiqamətdə islahatların aparılmasının vətəndaşların gözləntisində olduğunu göstərir. Yuxarıda da qeyd edildiyi kimi, məhkəmələrə etibar əhali arasında o qədər də yüksək deyil (49%). Bu iki fikir arasındakı əlaqəyə baxdıqda aydın olur ki, məhkəmələrdə islahatların olmasını istəyənlər içərisində məhkəmə orqanlarına etibar etməyənlər üstünlük təşkil edir ($X^2(9)=24.325$, $p<0.01$).

Digər iki sahə ilə müqayisədə respondentlər qanunverici sahədə (24.5%) islahatların vacibliyinə daha az ehtiyac duyur. Bu, qanunverici hakimiyyətdə köklü islahatların 2020-ci ildə aparılması ilə bağlı ola bilər. Həmçinin, respondentlərin əhəmiyyətli hissəsi parlamentin yeni tərkibinin Prezidentin islahatlar kursuna dəstək verəcəyi fikrindədir. Bu məqam, yuxarıda vurğulandığı kimi, ictmai rəydə yeni parlamentlə bağlı gözləntilərin olması ilə izah edilə bilər. Bir çox icra hakimiyyətlərində baş verən kadr dəyişiklikləri bu prosesin qənaətbəxş olmasından xəbər versə də, hələ də bəzi rayonlarda bu islahatlara böyük ehtiyac var. İcra hakimiyyəti sahəsində başladılan islahatlardan vətəndaşların çox böyük gözləntisi olmaqla yanaşı, onlarda bu prosesin davamlı olacağına ümid və inam var.

Milli Məclisin yeni tərkibinin Prezidentin islahatlar kursuna dəstək verə biləcəyini düşünənlərin əsaslı hissəsi icra hakimiyyəti müstəvisində islahatlara daha çox ehtiyac olduğu qənaətindədir. Həm bu, həm də sorğudakı digər sualların nəticələrinə əsasən deyə bilərik ki, 9 fevral

tarixində keçirilən parlament seçkiləri insanlarda Milli Məclisin yeni tərkibi barədə əsasən müsbət təəssüratlar formalaşdırsa da, icra hakimiyyətinə dair ictimai fikir birmənalı deyil və yeni dəyişikliklərin olması arzulanır.

Prezidentin xalqın içində olması, həyat tərzində və davranışlarında daim sadəliyə üstünlük verməsi həm də məmurlara sözlə deyil, əməllə olan mesajdır. **Respondentlərin mütləq əksəriyyəti (94.2%) Prezidentin öz sadəliyi və təvazökarlığı ilə məmurlara örnək olması fikrindədir.** Ölkə başçısının bir çox tədbirlərdə, görüşlərdə olan davranışları, səmimi söhbətləri, insanları sonadək dinləməsi vətəndaşlarda bu fikri formalaşdırır. Xoşbəxt Yusifzadənin 90 illik yubiley tədbirində səmimi davranışı, onun əmək fəaliyyəti ilə bağlı faktları vurğulaması, "Asan xidmət" Mərkəzinin açılışı zamanı gənclərlə görüşdə daha sadə oturacaqda gənclərlə bərabər şərtlərdə əyləşməsi, çıxışlarında böyüklərə, ağsaqqallara olan hörmətdən danışması və bunu əməli şəkildə göstərməsi, bununla bağlı gənclərə tövsiyələri və digər bir çox nümunələr insanların düşüncəsində "sadə və səmimi Prezident" obrazını yaradıb.

Həmçinin, ölkə başçısının və ailə üzvlərinin sosial şəbəkələrdəki hesablarında müəyyən bayram tədbirlərindən, doğum günü məclislərindən paylaşılan şəkillərdən də milli adət-ənənələrimizi qoruması, həyat tərzində sadəliyə üstünlük verməsi aydın görünür.

Tədqiqat çərçivəsindəki sorğu və əməkdaşların yerlərdəki müşahidələri onu göstərir ki, insanlar Prezidentin xalqla təmasından razı olduqları halda, məmurlardan, onların insanlarla olan neqativ davranışlarından, xalqla təmasdan çəkinmələrindən daha çox narazıdırlar.

Rəyi soruşulanların 77.6%-nin nəzərində "Prezidentin çıxışlarında bütün hakimiyyət təmsilçilərinə xalqa xidmət etməyi və xalqa yaxın olmağı tapşırması" ölkə başçısının nüfuzuna "ən çox təsir" göstərən amil kimi irəli çıxır ki, bu da məmurların cəzalandırılması və kadr dəyişikliklərinin vətəndaşlar üçün yüksək əhəmiyyət kəsb etdiyini göstərir. Təsir dərəcəsinə görə növbəti pillələrdə "xalqa xidmət etməyən məmurlara qarşı qətiyyətli davranışı" (71.8%), "xalqın içərisində olması" (71.6%), "sadə və təvazökar olması" (71.3%) amilləri dayanır. Nəticələrə əsasən, deyə bilərik ki, kadr dəyişiklikləri və Prezidentin sadə vətəndaşa yaxın olması onun nüfuzuna müsbət təsir göstərən əsas amillərdir.




***Diaqram 17.*** *Aşağıdakı sahələrdən hansında islahatlara daha çox ehtiyac var?*




***Diaqram 18.*** *"Prezident öz sadəliyi və təvazökarlığı ilə məmurlara örnəkdir" fikri ilə nə dərəcədə razısınız?*




***Diaqram 19.*** *Aşağıdakı amillər Prezidentin nüfuzuna hansı dərəcədə təsir göstərir?*

*Diaqram 20.*
*Son 5 ayda Prezidentə olan inam və etimadınız necə dəyişib?*




Respondentlərin 58,1%-i Prezidentə olan inam və etimadının daha da artdığını, 36,4%-i isə inam və etimadının yüksək səviyyədə qaldığını qeyd edib.

Regionlar və Bakı üzrə aparılan müşahidələr də onu göstərir ki, ölkə başçısına yüksək inam və etibarla yanaşı, onun fəaliyyətindən ümumi razılıq var. Bu, ölkə başçısının rəhbərliyi altında son zamanlar həyata keçirilən sosial islahatlar, xüsusilə də son 3 ayda aparılan islahatlar fonunda özünü daha qabarıq formada göstərir. Müxtəlif bölgələrdə dövlət rəhbərinə olan bu rəğbətlə yanaşı, vətəndaşlarda Prezidentin ətrafının onun fəaliyyətinə adekvat olmaması ilə bağlı fikirlər və bundan dolayı narahatlıq mövcuddur.

STM tərəfindən aparılan bir neçə tədqiqatın nəticələri onu göstərdi ki, əhali məlumatları əsasən televiziyadan, daha sonra sosial şəbəkələrdən və saytlardan alır. Bu sorğunun nəticələri də onu göstərir ki, vətəndaşlar Prezidentin fəaliyyəti ilə bağlı məlumatları televiziyadan (81.1%) və sosial şəbəkələrdən (41.7%) alırlar. Bu göstərici televiziyaların əhalinin Prezidentin fəaliyyəti ilə bağlı məlumatlanması baxımından əsas mənbə olduğunu bir daha təsdiqləyir. Həmçinin, televiziyaların bu istiqamətdə daha operativ, dolğun informasiyalar tədqim etməsi zərurətini meydana çıxarır. Yalnız xəbərlər deyil, əhalinin ən çox baxdığı televiziyalarda Prezidentin fəaliyyəti ilə bağlı müəyyən verilişlərin xüsusilə əhalinin daha çox televiziyaya baxdığı vaxtlarda verilməsi, Prezidentin fəaliyyətini özündə əks etdirən videoroliklərin yayımlanması vətəndaşların məlumatlanması baxımından effektiv ola bilər.

Digər məsələ isə *prezident.az* saytından (7.3%) və Prezidentin sosial şəbəkə hesablarından (8.4%) istifadə göstəricisinin o qədər də yüksək olmamasıdır. Respondentlərin demoqrafik təhlili göstərir ki, hər iki ünvana ali təhsilli şəxslər və Bakıda yaşayanlar daha çox daxil olur. Vətəndaşların digər sosial şəbəkələrdən deyil, birbaşa mənbənin özündən - Prezidentin sosial şəbəkə hesablarından məlumat alması daha düzgün informasiyaya çıxış baxımından effektli olar.

*Diaqram 21.*
*Prezidentin fəaliyyəti ilə bağlı məlumatları əsasən haradan əldə edirsiniz?*

**Qeyd:**
Respondentlərə bir neçə cavab variantını seçmək imkanı verilib. Buna görə də alınan cavabların ümumi faizi 100%-dən artıq olub.



# NƏTİCƏ

❖ 2020-ci ilin birinci rübü ərzində Prezident İlham Əliyevin daxili və xarici siyasət sahəsində həyata keçirdiyi fəaliyyətə ictimai rəyin münasibətinin, Prezidentə “İnam indeksi”nin öyrənilməsi ilə bağlı keçirilmiş sorğunun nəticələrinin təhlili göstərir ki, Prezident İlham Əliyevə cəmiyyətin inam və etibarı, onun həyata keçirdiyi düzgün siyasət nəticəsində daha da artıb, xalqımızın rifahı və firavanlığının daha da yaxşılaşmasına yönələn islahatlar kursuna dəstək yüksələn xətt üzrə davam edib.

❖ Hakimiyyətin digər qolları (qanunverici və məhkəmə hakimiyyəti) ilə müqayisədə respondentlərin mütləq əksəriyyəti Prezidentə etibar edir.

❖ Prezidentə “tam etibar edirəm” deyənlər respondentlərin mütləq çoxluğunu **(90.8%)** təşkil edir.

❖ Respondentlərin **57.4%**-i parlamentə, **46.2%**-i yerli icra hakimiyyətinə, **49%**-i məhkəməyə etibar edir. Bu üç hakimiyyət qolu içərisində ən aşağı etibarlılıq icra hakimiyyətinədir. Bu, onu deməyə əsas verir ki, ölkə əhalisi hakimiyyətin digər strukturları ilə müqayisədə Prezidentə daha çox etibar edir.

❖ Ölkə başçısının hərbi, siyasi və sosial-iqtisadi sahələrdəki fəaliyyəti ümumilikdə böyük əksəriyyət tərəfindən müsbət dəyərləndirilib. Prezidentin ordu quruculuğu və silahlı qüvvələrin modernləşdirilməsi **(96%)** və xarici siyasət **(95%)** sahələrindəki fəaliyyəti respondentlərin mütləq əksəriyyəti tərəfindən daha çox müsbət qiymətləndirilir.

❖ 2019-cu ildə keçirilən tədqiqatın nəticələri ilə yeni nəticələri müqayisə etdikdə aydın olur ki, keçən bir neçə ay ərzində Prezidentin müxtəlif sahələrdəki fəaliyyətinə əhalinin münasibəti müsbətə doğru yüksəlib. Digər önəmli məqam odur ki, Prezidentin müxtəlif istiqamətlərdəki fəaliyyətini “çox yaxşı” qiymətləndirənlər nəzərəçarpacaq dərəcədə artıb.

❖ Əhalinin gündəlik həyatına birbaşa təsir edən, yaxud təsiri hiss edilən məsələlərin - sosial-iqtisadi sahədə korrupsiyaya qarşı mübarizə səviyyəsinin ictimai rəydə qiymətləndirilməsinin nisbətən aşağı olması bu sahənin, eləcə də işsizlik və sosial vəziyyətin yaxşılaşdırılması kimi məsələlərin yaxın dövr üçün dövlət siyasətinin əsas hədəflərindən biri kimi qalmalı olduğuna dəlalət edir.

❖ 2020-ci ilin fevral ayında Münhen Təhlükəsizlik Konfransındakı çıxışında (“Valday” Beynəlxalq Diskussiya Klubunda Prezidentin çıxışının davamı kimi) Ermənistanın baş nazirini və işğalçılıq siyasətini tarixi həqiqətlərlə ifşa etməsi ictimai rəydə vətəndaşların Prezidentə olan münasibətinə müsbət təsir göstərməklə bərabər, ərazi bütövlüyümüzün bərpa edilməsinə olan inamı da artırıb.

❖ Prezidentin Münhen Təhlükəsizlik Konfransındakı çıxışı Ermənistanın baş nazirinin növbəti dəfə aciz duruma düşməsi **(56.7%)**, Prezidentin növbəti diplomatik qələbəsi **(48.5%)**, Dağlıq Qarabağ probleminin həlli istiqamətində yeni bir mərhələ **(44.3%)** kimi qiymətləndirilib.

❖ Rəyi öyrənilən respondentlərin əhəmiyyətli bir hissəsi **(75,9%-i)** dünya neft bazarlarındakı volatillik fonunda valyuta məzənnəsinin sabit saxlanılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirləri əhəmiyyətli dərəcədə səmərəli hesab edir.

❖ Ölkədə maliyyə-bank sektorundakı sabitliyin təmini ilə bağlı nəticə əsaslı tədbirləri müvafiq olaraq respondentlərin **63,1%**-i kifayət qədər səmərəli hesab edir.

❖ COVID-19 pandemiyasının və eləcə də qlobal neft böhranının (neft qiymətlərindəki kəskin eniş) dərinləşdiyi bir dövrdə ölkədə ərzaq təhlükəsizliyi ilə təminat sahəsində reallaşdırılmış genişmiqyaslı işləri vətəndaşlar yüksək dəyərləndirir **(87.8%)**.

❖ Rəyi öyrənilənlərin **87.8%**-i müvafiq dövlət qurumlarının sosial-iqtisadi islahatlarla bağlı ictimaiyyəti periodik məlumatlandırmasını səmərəli qiymətləndirir.

❖ **89.2%** respondent ölkə Prezidentinin milli genofondun qorunması, sosial səhiyyə və sağlamlığın daha da möhkəmləndirilməsi məsələlərinə xüsusi həssaslıqla yanaşmasını, daima diqqət mərkəzində saxlamasını olduqca yüksək qiymətləndirərək bu istiqamətdə dövlət siyasətini təqdir edir.

❖ Respondentlərin mütləq əksəriyyəti **(93%)** dövlətin koronavirusla bağlı ilkin mərhələdə həyata keçirdiyi tədbirləri müsbət dəyərləndirərək yetərli sayır.

❖ Respondentlərin böyük əksəriyyəti **(87.8%)** pandemiyanın mövcud olduğu vəziyyətdə hər hansı problemlə qarşılaşdığı zaman dövlətin onlara dəstək göstərəcəyinə inanır.

❖ Respondentlərin böyük əksəriyyəti pandemiyaya qarşı mübarizə tədbirləri çərçivəsində atılan addımlara - karantin məhdudiyyətlərinin tətbiq edilməsinə, bir sıra qonşu ölkələrlə sərhədlərin bağlanmasına **(85.6%)**, kütləvi tədbirlərin qadağan edilməsinə **(84%)** tədrisin dayandırılmasına **(82.4%)** daha müsbət münasibət bildirib.

❖ Ümumilikdə, respondentlərin mütləq əksəriyyəti **(92.8%)** ictimai qınağa səbəb olan hadisələrə Prezidentin reaksiyası ilə həmrəydir.

❖ Respondentlərin əksəriyyəti **(88.9%)** yerlərdə baş verənlər barədə Prezidentin ümumilikdə məlumatlı olması fikrindədirlər. Lakin nə dərəcədə məlumatlı olub-olmaması barədəki fikri birmənalı deyil – "tam məlumatlıdır" **(44.3%)** və "qismən məlumatlıdır" **(44.6%)** cavablarını seçənlərin çəkisi demək olar ki eynidir.

❖ Qeyd etmək lazım gəlir ki, respondentlərin **10%**-nin Prezidentin yerlərdə baş verənlər barədə tam məlumatsız olması qənaətində olması düşündürücü məqamdır. Bu nəticəyə əsasən ölkə rəhbərinin çıxışlarında tez-tez vurğuladığı ictimai nəzarətin vacibliyi ilə bağlı fikrinin əhəmiyyətli olduğunu bir daha görə bilərik. Sorğunun nəticəsi bunu da deməyə əsas verir ki, yerlərdə gedən proseslərin və mövcud problemlərin ən yuxarı instansiyalara çatdırılması mexanizmlərinin bir daha nəzərdən keçirilməsinə, təkmilləşdirilməsinə ehtiyac var. Məsələn, vətəndaşların müraciətlərinin müvafiq ünvana çatmaması bu cəhətdən əsas problemlərdən biridir.

❖ Respondentlərin nəzərində Prezidentin yerlərdə baş verənlərlə bağlı məlumatlılığı onun qərar qəbul etməsində əsasən qanunazidd hərəkətlərə yol verən məmurların cəzalandırılmasında **(67.5%)**, korrupsiyaya qarşı mübarizədə **(48.7%)** və kadr islahatlarında **(43.2%)** özünü büruzə verir.

❖ Sosial problemlərin həllində və onlara çevik reaksiya verilməsində Prezidentin məlumatlılıq səviyyəsinin mühüm əhəmiyyətə malik olmasını yalnız hər üç respondentdən birinin ifadə etməsi düşündürücü məqam hesab edilə bilər.

❖ Əhalinin böyük əksəriyyəti **(81.8%)** "tam əminliklə" bu qənaətdədir ki, yerli icra hakimiyyəti başçılarının Prezident tərəfindən vəzifədən azad edilməsində ictimai fikrin birbaşa təsiri var. Bu fikirdə olanların ümumi göstəricisi isə **95.2%** təşkil edir. Əhali arasında belə qənaətin yayılması Prezident-vətəndaş münasibəti cəhətdən müsbət səciyyələndirilə bilər.

❖ Ümumilikdə, respondentlərin üçdə ikisindən bir qədər çox hissəsi ölkə rəhbərinin ictimai qınağa səbəb olan məsələlərə reaksiyasından tam razıdırsa, dörddə biri qismən razıdır. Nəticələrə əsasən, insanlar ölkə başçısının özünün fəaliyyətində ictimai rəyə həssas olduğunu düşünür.

❖ İslahatlar və korrupsiyaya qarşı mübarizə siyasəti çərçivəsində Dövlət Təhlükəsizlik Xidməti tərəfindən yerli icra başçılarına qarşı aparılan əməliyyatlar xüsusilə regionlarda yaşayan vətəndaşlarda müsbət gözləntilərin yaranmasına səbəb olub. Bəzi hallarda vəziyyətin dəyişməyəcəyi, məmur özbaşınalığının davam edəcəyini düşünənlərin belə fikirləri dəyişməkdədir. İnsanlar bu kimi addımları da islahatların əsas qolu kimi qiymətləndirir və bunun davamlı olmasını arzulayırlar.

❖ Həmçinin, Prezidentin etimadını doğrultmayan məmurların bu şəkildə cəzalandırılması onu göstərir ki, islahatlar dönməz və ardıcıl xarakter daşıyır, xalqa xidmət fəaliyyətin yeganə meyarıdır. Eləcə də, qanun qarşısında hər kəs bərabərdir. İnsanlarda da qanunun aliliyinə inam artmaqdadır.

❖ Respondentlərin yarıdan çoxu **(54.4%)** bu əməliyyatlardan sonra rayon icra hakimiyyəti başçılarının korrupsiyaya yol verməkdən çəkinəcəyini düşünür. Bir o qədər respondentdə vətəndaşların qanunun aliliyinə inamının artacağı gözləntisi **(50.3%)** var.

❖ Respondentlərin əksəriyyəti **(85%)** Dövlət Təhlükəsizlik Xidməti tərəfindən aparılan əməliyyatların Prezidentin imicinə müsbət təsir etdiyini düşünür. Vəzifələrindən sui-istifadə edən məmurların cəzalandırılaraq vəzifədən uzaqlaşdırılması başlanan islahatlara heç kimin mane ola bilməyəcəyini göstərir.

❖ Həyata keçirilən kadr dəyişiklikləri vətəndaşların əsaslı hissəsinin nəzərində Prezidentin nüfuzuna müsbət təsir göstərən əsas amillərdən biridir.

❖ Respondentlərin mütləq əksəriyyəti **(91%)** son dövrlər yerli icra hakimiyyəti orqanlarına daha gənc kadrların təyin olunmasını bu və ya digər dərəcədə müsbət (**75.2%** "çox yaxşı", **15.8%** "əsasən yaxşı") qiymətləndirir.

❖ Respondentlərin əhəmiyyətli hissəsi **(63.9%)** Milli Məclisin yeni tərkibinin Prezidentin islahatlar kursuna dəstək və

töhfə verə biləcəyini düşündüyü halda, **21.1%** respondent bu haqda fikir bildirməkdə çətinlik çəkib.

❖ Respondentlər Prezidentin təhlükəsizlik orqanlarında həyata keçirdiyi kadr dəyişikliklərinin ümumi islahatların effektivliyinə **(79.5%)**, milli təhlükəsizliyin gücləndirilməsinə **(85.5%)**, xalqın təhlükəsizlik orqanlarına olan inamına **(81.9%)** müsbət təsir edəcəyi fikrindədir.

❖ “Hansı sahədə daha çox islahatlara ehtiyac var?” sualına verilən cavablara əsasən deyə bilərik ki, icra hakimiyyəti **(53.7%)** və məhkəmə **(45.7%)** hakimiyyətində islahatların aparılması əhali tərəfindən ən çox ehtiyac duyulandır. İcra hakimiyyəti sahəsində islahatların vacibliyini deyənlər içərisində icra hakimiyyətinə etibar etməyənlər üstünlük təşkil edir. Bu nəticə onu deməyə əsas verir ki, hələ də yerlərdə icra hakimiyyətlərinin fəaliyyətləri qənaətbəxş deyil və vətəndaşlar tərəfindən səmərəli qiymətləndirilmir.

❖ Respondentlərin təxminən yarısının məhkəmə sahəsində islahatların zəruriliyini bildirməsi bu istiqamətdə də islahatların aparılmasının vətəndaşların gözləntisində olduğunu göstərir. Yuxarıda da qeyd edildiyi kimi, məhkəmələrə etibar əhali arasında o qədər yüksək deyil **(49%)**. Bu iki fikir arasındakı əlaqəyə baxdıqda aydın olur ki, məhkəmələrdə islahatların olmasını istəyənlər içərisində məhkəmə orqanlarına etibar etməyənlər üstünlük təşkil edir.

❖ Digər iki sahə ilə müqayisədə respondentlər qanunverici sahədə **(24.5%)** islahatların vacibliyinə daha az ehtiyac duyur. Bu, qanunverici hakimiyyətdə köklü islahatların 2020-ci ildə aparılması ilə bağlı ola bilər. Həmçinin, respondentlərin əhəmiyyətli hissəsi parlamentin yeni tərkibinin Prezidentin islahatlar kursuna dəstək verəcəyi fikrindədir. Bu məqam da, yuxarıda vurğulandığı kimi, ictmai rəydə parlamentin yeni tərkibi ilə bağlı gözləntilərin olması ilə izah edilə bilər.

❖ Rəyi soruşulanların **77.6%**-nin nəzərində “Prezidentin çıxışlarında bütün hakimiyyət təmsilçilərinə xalqa xidmət etməyi və xalqa yaxın olmağı tapşırması” ölkə başçısının nüfuzuna “ən çox təsir” göstərən amil kimi irəli çıxır ki, bu da məmurların cəzalandırılması və kadr dəyişikliklərinin vətəndaşlar üçün mühüm əhəmiyyət kəsb etdiyini göstərir.

❖ Təsir dərəcəsinə görə növbəti pillələrdə “xalqa xidmət etməyən məmurlara qarşı qətiyyətli davranışı” **(71.8%)**, “xalqın içərisində olması” **(71.6%)**, “sadə və təvazökar olması” **(71.3%)** amilləri dayanır.

❖ Respondentlərin mütləq əksəriyyəti **(94.2%)** Prezidentin öz sadəliyi və təvazökarlığı ilə məmurlara örnək olması fikrindədir. Ölkə başçısının bir çox tədbirlərdə, görüşlərdə olan davranışları, səmimi ünsiyyəti, insanları sonadək dinləməsi vətəndaşlarda bu fikri formalaşdırır.

❖ 2020-ci ilin birinci rübündə vətəndaşların Prezidentə olan inam və etimadının dinamikasına baxdıqda aydın olur ki, bu istiqamətdə yüksəlmə var. Belə ki, STM tərəfindən 2019-cu ildə keçirilən “Prezidentin fəaliyyəti ictimai rəydə” - "İnam indeksi"ndə oktyabr ayı üzrə bu göstərici **54.6%** idisə, mart ayında bununla müqayisədə göstərici **58.1%**-dir. Ümumilikdə 2020-ci ilin mart ayına olan göstəricilərə əsasən deyə bilərik ki, respondentlərin mütləq əksəriyyəti ölkə başçısına inanır və etimad göstərir.

❖ Vətəndaşlar Prezidentin fəaliyyəti ilə bağlı məlumatları televiziyadan **(81.1%)** və sosial şəbəkələrdən **(41.7%)** alırlar. Prezident.az saytından **(7.3%)** və Prezidentin sosial şəbəkə hesablarından **(8.4%)** istifadə göstəricisi o qədər də yüksək deyil. Respondentlərin demoqrafik təhlili göstərir ki, hər iki ünvana ali təhsilli şəxslər və Bakıda yaşayanlar daha çox müraciət edir.

❖ Vətəndaşların digər sosial şəbəkələrdən deyil, birbaşa mənbənin özündən - Prezidentin sosial şəbəkə hesablarından məlumat alması daha düzgün informasiyaya çıxış baxımından səmərəli sayıla bilər.

# QEYDLƏR

## QEYDLƏR

## QEYDLƏR

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1006, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69

info@stm.az www.stm.az